**Osman SARIVƏLLİ**

# Demişəm

*Əziz dostum Kamala*

***Kamal! Səni görəndə,***
***Səninlə görüşəndə,***
***Xoş arzular, diləklər***
***Baş qaldırır sinəmdə...***

***Səxavətli cəmiyyət***
***Kamal layiqdir! - dedi,***
***Mərhəmətli təbiət***
***Kamal layiqdir! - dedi,***
***Heç birisi bunları,***
***Çox gözəl cəhətləri,***
***Gözəl məziyyətləri***
***Səndən əsirgəmədi,***
***Hər birisi onlara***
***Kamal layiqdir! - dedi.***

***Adın da Kamal oldu,***
***Özün də Kamal oldun.***
***Yüksək xəyallısan sən,***
***Elm, ürfan sahibi,***
***Xoş arzulu, diləkli,***
***Dərin kamallısan sən.***

***Heç unutmayaq bunu,***
***Ucuz tutmayaq bunu,***
***Qismət deyil hər kəsə,***
***Təbiətcə həm zərif,***
***Həm çox həssas, incəsən.***
***Ucuz tutma bunu sən!***
***Əlli il, altmış il***
***O qədər də çox deyil,***
***Sən hər zaman yüzə bax!***
***Yadına sal, bil, sənə***
***Əlli, altmış ili yox,***
***Mən sənə yüz demişəm,***
***Demişəm, düz demişəm!***
***Bu, andımdır, bil, insan!***
***Səni çox sevən Osman.***

*30 sentyabr 1983*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 12 avqust.- S. 5.